# İtaliya – dost ölkə, strateji tərəfdaş

**İtaliya Azərbaycanın mühüm tərəfdaşlarından biridir. Münasibətlərimiz strateji xarakter daşıyır. Hər iki ölkə bir çox sahələrdə sıx əməkdaşlıq edir. Dövlət başçılarının qarşılıqlı səfərləri və görüşləri zamanı aparılan danışıqlar əlaqələrimizin daha da möhkəmlənməsinə öz töhfəsini verir. İndiyədək Azərbaycanla İtaliya arasında 60 sənədin imzalanması da əməkdaşlığın geniş miqyasını göstərir.**

**İtaliya Azərbaycanın, Azərbaycan isə İtaliyanın Cənubi Qafqazda ən əsas ticarət tərəfdaşıdır. İtaliya şirkətləri uzun müddətdir ki, ölkəmizdə geniş fəaliyyət göstərir və münasibətlərimizin inkişafında vacib rol oynayır. Bu əməkdaşlıq işğaldan azad olunmuş ərazilərimizdə də uğurla həyata keçirilir.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



İtaliya Respublikası iqtisadi inkişaf baxımından dünyanın qabaqcıl sənaye ölkələrindən biridir. Avropada üçüncü, dünyada isə yeddinci ən böyük iqtisadiyyata malik ölkədir. İtaliya, həmçinin dünyanın ilk 10 məhsul ixracatçısından biri kimi də tanınır. Ən böyük turizm bölgələrindən biri olan İtaliya, eyni zamanda, Avropanın beşinci ən böyük avtomobil istehsalçısıdır. Bununla yanaşı, rəsmi Roma Avropada cərəyan edən geosiyasi və geoiqtisadi proseslərin fəal iştirakçısıdır. 1949-cu ilin aprelindən NATO-nun üzvü olan İtaliya Avropa Birliyinin aparıcı ölkəsi kimi xarici siyasətin formalaşdırılmasında yaxından iştirak edir. Təsadüfi deyil ki, Şimali Atlantika Alyansının ən nüfuzlu üzvlərindən biri olan İtaliyanın hərbi qulluqçuları NATO-nun müxtəlif təlim və əməliyyatlarında fəal iştirak edirlər. Belə bir nüfuzlu və güclü ölkə ilə əməkdaşlığın inkişafı Azərbaycanın milli maraqlarına cavab verir.

Ümumiyyətlə, Azərbaycanla İtaliya arasında münasibətlərin tarixi çox qədimdir. İtaliya Azərbaycanın Avropada ən qədim dövrlərdən diplomatik əlaqələr saxladığı ölkələrdən biridir. Hələ orta əsrlərdə Səfəvilər sarayında Venesiya və Genuya respublikalarının daimi elçilərinin fəaliyyət göstərmələri barədə tarixi faktlar məlumdur. Ancaq 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra iki ölkə arasında münasibətlərdə yeni səhifə ümummilli lider Heydər Əliyevin İtaliyaya gerçəkləşdirdiyi səfərdən sonra açılmışdı. Məhz həmin səfərdən sonra Azərbaycan – İtaliya münasibətlərinin hüquqi müqavilə bazası genişlənmiş və müxtəlif sahələrdə əməkdaşlıq inkişaf etməyə başlamışdı.

Sonrakı dövrlərdə Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan – İtaliya münasibətləri tamamilə yeni səviyyəyə yüksəldi. Bunun nəticəsidir ki, bu gün Azərbaycan və İtaliya arasında münasibətlər yüksək səviyyədədir və strateji tərəfdaşlıq xarakteri daşıyır. Fevralın 13-də Bakıda "Gülüstan" sarayında müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimində Prezident İlham Əliyev bir daha diqqətə çatdırdı ki, İtaliya Azərbaycanın strateji tərəfdaşıdır: "İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır, yüksək səviyyəli qarşılıqlı səfərlər təşkil edilmişdir. Bu ilin yanvar ayından bəri İtaliyanın yeni hökumətinin üç naziri artıq Azərbaycana səfərlər etmişlər – müdafiə naziri, energetika naziri və bu gün şirkətlər və "Made in Italy" naziri. Cəmi bir ay ərzində, – yəni, birinci səfər yanvarın 11-də olmuşdur. Yeni hökumətin 3 naziri Azərbaycana gəlmişdir. Bu, əlaqələrimizin, doğrudan da, yüksək səviyyədə olmasından xəbər verir".

Avropa Birliyinin təsisçi üzvlərindən biri kimi, İtaliya da Azərbaycanla münasibətlərin hərtərəfli inkişafında maraqlıdır. Rəsmi Roma ölkəmizlə yalnız enerji sahəsində deyil, həmçinin digər sahələrdə, həm siyasi, həm mədəni sahələrdə olan əlaqələri inkişaf etdirmək istəyir. İtaliya Azərbaycanla müxtəlif sahələrdə, xüsusilə də enerji sahəsində fəal əməkdaşlıq edir. Azərbaycan da öz növbəsində italyan mallarına və texnologiyasına yüksək dəyər verir, neft-kimya, infrastruktur, tikinti, moda kimi digər sektorlar üzrə əməkdaşlıqda da geniş imkanlar mövcuddur və tərəflər bütün bu imkanlardan yararlanırlar. Hazırda Azərbaycan neftinin böyük hissəsi İtaliya bazarına çıxarılır və iki ildən çoxdur ki, Azərbaycan qazı İtaliyaya çatdırılır. Prezident İlham Əliyevin dediyi kimi, Cənub Qaz Dəhlizinin başlanğıcı Azərbaycanın Xəzər dənizindəki sektorudursa, bunun son məntəqəsi İtaliyadır.

Qeyd olunduğu kimi, 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının tikintisində İtaliyanın "Made in Italy" şirkəti iştirak edəcək. İtaliya şirkətinin Azərbaycanın enerji infrastrukturunun inkişafına yönəlmiş bu böyük layihədə iştirakı təsadüfi deyil. Mütəxəssislərin sözlərinə görə, bu layihə Avropaya elektrik enerjisi ixracının artırılmasına kömək edəcək və İtaliya Azərbaycanın Aİ-də əsas strateji tərəfdaş kimi mövqelərini daha da gücləndirəcək. İki ölkə arasında, xüsusilə də enerji sahəsində əməkdaşlığın Avropanın enerji xəritəsində dəyişikliyə səbəb olması artıq heç kəsə sirr deyil. İki ölkə arasında həm siyasi, həm də ticari-iqtisadi əlaqələr yüksək səviyyədədir və Azərbaycan öz ərazilərini işğaldan azad etdikdən sonra bu əlaqələr daha da dərinləşir. İtaliya şirkətlərinin Azərbaycana marağının artması da faktdır: bir çox italyan şirkətləri işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərində iştirak edirlər.

Bir sözlə, Azərbaycanın bu böyük layihədə İtaliya ilə tərəfdaşlığı iki ölkə arasında enerji sahəsində əməkdaşlığın strateji xarakterini bir daha nümayiş etdirir. Bu tərəfdaşlıq artıq Azərbaycan qazının Avropa bazarlarına çıxarılmasını təmin etmişdir. Ciddi maneələrə, xarici təzyiqlərə və təhdidlərə baxmayaraq, İtaliyada Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP qaz kəməri layihəsi uğurla həyata keçirilmişdir. İndi İtaliya şirkətləri Azərbaycandan Avropaya elektrik enerjisinin ixracının əsasını qoyurlar. Təcrübə göstərir ki, ölkələr arasında ideal siyasi əlaqələr iqtisadi, ticarət, mədəni və digər sahələrdə əməkdaşlığın inkişafı üçün hərtərəfli zəmin yaradır. Bu mənada Azərbaycan ilə İtaliya arasında siyasi əlaqələrin yaxşılaşdırılması hərtərəfli əməkdaşlığın inkişafına təkan verir.

**Səbuhi MƏMMƏDOV,**
**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2023.- 15 fevral.- S.3.